# NEKROLOQ

## Professor

## LƏTİF MƏMMƏD OĞLU VƏLİYEV



27 oktyabr 2002-ci ildə f.r.e.d. professor Lətif Məmməd oğlu Vəliyev qəflətən vəfat etmişdir.

L.M. Vəliyev 1932-ci il dekabr ayının 10-da Gürcüstanın Marneuli rayonunun Böyük Muğanlı kəndində anadan olmuşdur. 1961-ci ildə Tusi adına Azərbaycan Pedaqoji Universitetinin fizika-riyaziyyat fakultəsini bitirmiş, 1961-1962-ci illərdə 1 saylı texniki məktəbdə müəllim, 1962-1963-cü illərdə isə Azərbaycan Neft Akademiyasında assistent işləmişdir.

L.M. Vəliyev 1963-cü ildə Azərbaycan MEA Fizika İnstitutunun aspiranturasına daxil olmuş, 1969-cü ildə namizədlik, 1982-ci ildə isə «3d keçid metalların xalkogenidləri əsasında maqnitnizamlı yarımkeçiricilərdə elektron keçiriciliyi» mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. O, 1971-ci ildən böyük elmi işçi, 1987-ci ildən isə aparıcı elmi işçi vəzifəsində çalışmış və ona 1973-cü ildə böyük elmi işçi, 1992-ci ildə professor elmi rütbəsi verilmişdir.

L.M. Vəliyev 1991-ci ildən ömrünün sonuna kimi «Maqnit yarımkeçiriciləri» laboratoriyasının rəhbəri vəzifəsində çalışmışdır. Onun rəhbərliyi ilə 1991-2002-ci illərdə çoxlu sayda mürəkkəb və kationəvəzedilmiş maqnitnizamlı sistemlərin geniş temperatur intervalında kinetik və maqnit xassələri tədqiq olunmuşdur. L.M. Vəliyev tərəfindən xarici və yerli elmi jurnallarda 100-dən artıq elmi məqalə, 1 monoqrafiya çap edilmişdir. Onun rəhbərliyi ilə 5 elmlər namizədi hazırlanmışdır.

Bundan əlavə, XI-XII-ci əsrlərdə yaşamış Azərbaycan dahi mütəfəkkirləri Nizami Gəncəvi və Əbül-Həsən Bəhmənyar əl – Azərbaycan elmi irslərini araşdırmış və «Nizami Gəncəvinin elm dünyası» kitabını nəşr etdirmişdir.

Nizami Gəncəvinin elm xəzinəsindən silsilə məqalələr hazırlamış, «Energetikanın problemləri» jurnalının 1,2,3,4 sayında dərc etdirmişdir. Lakin amansız ölüm bu işi sona çatdırmağa imkan vermədi.

L.M. Vəliyev elmin Azərbaycan dilində populyarlaşması sahəsində mühüm işlər görmüşdür. O, «Elm və həyat» jurnalı redaksiya heyətinin üzvü olmuşdur.

Lətif müəllimin ölümü onu tanıyanların qəlbində böyük kədər hissi oyatmışdır.

Görkəmli təvazökar alim, nümunəvi tərbiyəçi müəllim, nəcib və xeyirxah insan, sadiq və mehriban dost olan professor L.M. Vəliyevin xatirəsi bütün onu tanıyanların ürəyində əziz qalacaq.

Allah rəhmət eləsin!

Redaksiya heyəti